**Hüseynova Aysel Ramiz qızı**

*AMEA-nın aspirantı*

# NAXÇIVAN TÜRBƏLƏRİ VƏ ONLARIN ANALOQLARI

**Açar sözlər:** Naxçıvan türbələri, memarlıq məktəbi, tükr türbələri, ümumi, fərqli.

Möhtəşəm tarixə malik olan Azərbaycanın ən qədim məkanlarından biri də Naxçıvandır. Bunu Naxçıvanda arxeoloji qazıntılar zamanı tapılan əşyalar, günümüzə qədər gəlib çıxan tarixi memarlıq abidələri, tikililəri sübut edir. Tarix sadə görünsədə, çox mürəkkəb anlayışdır. Naxçıvan tarixinin mürəkkəbliyi isə onun qədimiliyindədir.

Naxçıvan memarlıq məktəbinin ilkin nümunələrindən olan, Mömünə Xatun türbəsindən 25 il əvvəl yəni 1162-ci ildə inşa edilən, əsil adı Yusif Küseyir oğlu türbəsi olan, el arasında isə Ata –baba türbəsi və ya Ata-baba günbəzi adlandırılan bu abidə,Azərbaycanın qülləvari türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan yeganə abidə sayılır.



***Şəkil 1. Yusif Küseyir oğlu türbəsi (yeni foto)***

O dövrün hörmətli şəxslərindən biri Yusif İbn Küseyir oğlu olub. Bu tikili məhz onun şərəfinə inşa olunmuşdur. Bu tikilidə digər xatirə tikililəri kimi üç hissədən: sərdabə, yeraltı və konusvari örtük hissədən ibarətdir.

Sərdabə hissədə adətən mərhumun məzarı, baş daşı olurdu. Yuxarı hissəsi isə xatirə məqsədi daşıyırdı. Ziyarətçilər adətən tikilinin sərdabə hissəsində qapıdan daxil olaraq xatirə məqsədi daşıyan üst hissəsini ziyarət edirlər.[1] ***(Şəkil 1)***

Tikili daxildən və xaricdən səkkizbucaqlı şəkildə, divarlarının qalınlığı 80 sm olan abidə bişmiş kərpicdən tikilmişdir. Səkkiz üzlü türbənin çıxıntılı dayaqlar şəklində olan tinləri sadə hörgülü kərpicdən yaradılmışdır.

Binanın üst hissəsi həndəsi ornamentli tavalarla üzlənən ayrı-ayrı səthlər müstəqil motivli naxışlarla işlənmişdir. Bütün ornamentlər kərpiclərdən quraşdırılan gəc məhlulu ilə tava şəklində birləşdirilərək səthlərə bərkidilmişdir. Türbənin qərbə baxan səthi digər səthlərdən fərqli olaraq giriş baş tağı şəklində tərtib olunmuşdur. ***(Şəkil 2)***



***Şəkil 2. Yusif Küseyir oğlu türbəsi (1968-ci il)***

Türbənin üzərindəki kitabədə belə bilidirlmişdir:

*Bu türbə xacər, sanlı rəyis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur.*

Daha bir kitabədə isə :

*Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir* açıqlaması verilərək, türbənin memarının adı qeyd olunmuşdur.

Bu abidə Memar Əcəmi Naxçıvanin ilk əsəridir. Onun ilk əsərinin olması Yusif Küseyir türbəsinin üzərində olan ornamentlərin nisbətən sadəliyi ilə seçilir.

Kompazisiyasına, tektonik aydınlığına, hissələrinin mütanasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii memarlıq nümunəsidir.

XX əsrin ortalarında bərpa edilən bu tikilinin dağılan hissələri düzəldilib və mühəndis qurğuları möhkəmləndirilib.

Naxçıvan şəhərində yerləşən Nuh Peyğənbərin türbəsi, Türkiyədə yerləşən Əlləddin bəy, İbrahim bəy, Əmir Kəmarəttin, Naib bəy, Ahi Yusif, Kaya Xəlil əfəndi türbəsi, Şahinşah gümbəzi Yusif Küseyir türbəsinin plan, fasad, konstruksiya, mərtəbə, həcm məkan təsnifatına görə oxşar və fərqli xüsusiyyətləri var.

**Nuh Peyğəmbər türbəsi -** Elmi araşdırmalar nəticəsində Nuh peyğəmbərin məzarüstü türbəsinin yeri təyin olunub, aparılan arxeoloji qazıntı zamanı türbənin özülü, naxış elementləri tapılaraq bərpa işlərinə başlanılıb. Türbə Yusif Küseyir türbəsində olduğu kimi sərdabədən, yerüstü məqbərədən və konusvari örtükdən ibarətdir. Bərpa zamanı kərpic, kaşı və müxtəlif naxış elementlərindən istifadə edilib. Bu türbədədə kərpic materialından istifadə olunub. [1]***(Şəkil 3)***



***Şəkil 3***. *Nuh peyğəmbərin məzarüstü türbəsi (VIII-XII əsr)*

Türbənin hündürlüyü 15 metr 50 santimetr, eni isə 7 metr 50 santimetrdir. Nuh peyğəmbərin məzarüstü türbəsi də 8 guşəlidir. Türbənin özülü tapılarkən 8 guşəli

və girişinin qərb istiqamətdən olduğu müəyyənləşdirilib. Ona görə də bərpa zamanı türbənin əvvəlki görkəminin yaradılmasına ciddi diqqət yetirilib.

Türkiyənin Karamanının Hisar, İmarət məhəllələrində yerləşən **İbrahim bəy** ***(Şəkil 4)*** **(**Bu türbə məscidə bitişik formadadır**), Əllədin bəy** ***(Şəkil 5 )*** **(**Fasaddan 8 guşəli olsa da, daxildən kub şəkillidir**), Qaya Xəlil Əfəndi** ***(Şəkil 6)*** **(**1409-cu ildə tikilmişdir, **Sitte Məlik (Şahinşah) günbəzi** ***(Şəkil 7)*** **(**1196-cı il, memarı Tut Bəğ Bəhram oğlu, Seyfəddin Suleyman oğlu Şahinah tərəfindən tikilmişdir**), Naib bəy türbəsi** ***(Şəkil 8 )***(1291-ci ildə Naib Əşrəf tərəfindən tikilmişdir, bir mərtəbəlidir), **Ahı Yusif türbəsi** (1986-cı ildə tikilmiş, kitabədə Qurani Kərimin 88-ci surəsinin ayətinin sonu yazılmışdır) və **Əmir Kəmarətdin türbəsinin** ***(Şəkil 9 )*** (1196-cı ildə tikilmiş, içərisində 3 naməlum başdaşı var, Qəriblər məzarlığının mərkəzində yerləşir.Qeyd etmək lazımdır ki, Məmmədəmin Rəsulzadənin qəbri bu məzarlıqdadır.) hər biri Yusif Küseyir türbəsində olduğu kimi, tikilidə sərdabədən ibarət olaraq, giriş hissədə kitabə mövcuddur, 8 güşəlidir və konusvari örtükdən ibarətdir.[2]



***Şəkil 4. İbrahim bəy türbəsi***



***Şəkil 5.Əllədin bəy türbəsi***



***Şəkil 6.Qaya Xəlil Əfəndi türbəsi***

Bu türbələrin Yusif Küseyr oğlu türbəsindən fərqli olaraq, buradakı bütün tikililər daşdan tikilərək, həm fasad, həm də interyeri kəsmə daşla üzlənmişdir.Pəncərə və

qapı üzərində bitki elementlərindən istifadə olunaraq çərçivələnmişdir. Fasad üzərində olan ornamentlər daha sadəliyi ilə seçilir. Bitki mənşəli gül elementləri yalnız fasadın giriş hissəsində mövcuudur. [3]




***Şəkil 7.Sitte Məlik (Şahinşah) günbəzi***



***Şəkil 8.Naib bəytürbəsi***



***Şəkil 9. Əmir Kəmarətdin türbəsi***

**Nəticə:** Türkiyədə Əllədin bəy, İbrahim bəy, Əmir Kəmarətdin türbəsi, Ahı Yusif türbəsi, Sitte Məlik (Şahinşah) günbəzi, Qaya Xəlil Əfəndi və Naib bəy türbələrinin Yusif Kuseyir oğlu türbəsi ilə həm oxşar həm də fərqli cəhətləri var.

Türbələrinin hər biri Yusif Küseyir türbəsində olduğu kimi, sərdabədən ibarət olaraq, giriş hissədə kitabə mövcuddur,8 güşəlidir və konusvari örtükdən ibarətdir.

Fərqli cəhətləri isə Əllədin bəy türbəsi fasaddan 8 guşəli olsada, daxildən kub şəklıтdə olması, Naib bəy türbəsinin isə bir mərtəbəli olması, bütün tikililər daşdan tikilərək, həm fasad, həm də interyeri kəsmə daşla üzlənməsi, pəncərə və

qapı üzərində bitki elementlərindən istifadə olunaraq çərçivələnməsi, fasad üzərində olan ornamentlərin daha da sadəliyi ilə fərqlənir.

## Ədəbiyyat


1. C. Qiyasi – Nizami dövrünün memarlıq abidələri, Bakı, İşıq nəşriyyatı, 1991, səh 162
2. http://ikev.org.tr/turbeler.html
3. http://www.larende.com/kultur-sanat/turbeler-h269.html#ixzz2rmfECun5



**ГусейноваАйсель**


## МОВЗАЛЕИ НАХЧЕВАНИ И ТУРЦИИ


**Ключевые слова:** Нахичеванские мовзалеи, архитектурная школа, турецкие мовзалеи, сходства, различия.


История очень сложное понятие чем кажется на самом деле. А история Нахичевани кажется сложной из-за ее древности.

Один из исторических памятников Нахичеваньгробница Юсифа ибн Кусейра построен в 1161—1162 годах. Архитектором гробницы является Аджеми ибн Абубекр Нахчивани.

Это с наружи и из нутрии небольшое восьмигранное сооружение, возведенное из 80 см обожженного кирпича. Углы восьмигранной гробницы в форме выходящих стоек возведены из простого кирпича.

Гробница Аладдин бека находится на улице Имарат, Турции, Ибрагим бек, Гробница Амир Камараддина, Купол Сит Малик (Шахиншах), Грабницы Гайа Халил Афанди и Наиб бега каждое как и гробница Юсифа Кюсеира состоит из хранилища, при входе с надписью, восьмигранное и конусообразным покрытием.

В отличие от гробницы Юсиф Кюсеир оглы все здешние постройки возведенные из кирпичей как внешне так и из нутрии облицованы из нарезного кирпича. Окна и двери были обрамлены с использованием элементов в виде растения. Элементы цветов использованы только на фасаде при входе

**Huseynova Aysel**

## MAUSOLEUM NAXCHIVAN AND TURKEY

**Keywords:** Nakhchivan tombs, Turkish tombs, school of architecture, similarities, differences.

The story is very complex concept than it actually is. But the story of Nakhichevan seems daunting because of its antiquity.

The Mausoleum of Yusif ibn Kuseyir was built in 1161–1162, in Nakchivan city.

Architect of the mausoleum was Ajami ibn Abubakr Nakhchivani

This is a small octagonal building from outside and inside built with 80 cm of burnt brick. Angles of octagonal tomb have shape extruded racks built from a simple brick.

Aladdin Bey Tomb located on the street Emirate, Turkey, Ibrahim Bek, Amir Kamaraddina. Ancient building of Ahi Yusif, Cit Malik dome (Shahinshah), tombs of Gaia Khalil Afandi and Naib Bey each as a Yusif Kuseyr tomb consists of a warehouse at the entrance with the inscription, with octagonal and tapered finish.

Unlike tomb Yusif oglu Kuseyr all the local buildings built of bricks both externally and from nutria lined rifled brick. Doors and windows were framed with elements in the form of plants. Elements of flowers used only on the facade at the entrance